# "Yeddi oğul istərəm"



**Kinematoqrafiyamızın yarandığı gündən qəhrəmanlıq mövzusunda neçə-neçə filmlər çəkilib. Amma onların arasında, cəsarətlə demək olar ki, 1970-ci ildə "Azərbaycanfilm" kinostudiyasında istehsal olunan "Yeddi oğul istərəm" filmi xüsusi yer tutur.Yaxşı bilirik ki, tarixi-inqilabi mövzuda olan bu ekran əsəri böyük şairimiz Səməd Vurğunun "Komsomol poeması"nın motivləri əsasında çəkilib. Filmin ssenarisini isə ölməz şairimizin oğlu Yusif Səmədoğlu qələmə alıb.**

**Mənə belə gəlir ki, bu poemanı oxumayan, ona bələd olmayan şəxs tapılmaz. Əlbəttə ki, yaşlı nəslin nümayəndələri arasından. Çünki, komsomolun yarandığı ilk illərdə Azərbaycanda Sovet hakimiyyətinin qurulması yolunda göstərilən şücaətdən, qəhrəmanlıqlardan söhbət açan neçə-neçə əsərlərlə yanaşı bu poema da azərbaycanlı gənclərin ən gözəl, milli xüsusiyyətlərini özündə əks etdirir.**

Xalqımıza məxsus olan ən xarakterik keyfiyyətlər-nəciblik, dostluq, sədaqət, mərdlik, dözümlülük, xeyirxahlıq, eləcə də xəyanətkarlığa, naqisliyə, satqınlığa qarşı barışmamazlıq "Komsomol poema"sındakı yeddi oğulun hər birində- Bəxtiyar, Mirpaşa, Cəlal, Uzun Qasım, Qəzənfər, Şahsuvar və Zalımoğlu obrazlarında öz dolğun əksini tapır.

Quruluşçu rejissor Tofiq Tağızadə də sadaladığımız obrazlara çəkilmək üçün seçdiyi aktyorlardan məhz bu xarakterik keyfiyyətləri ala bilməklə, "Yeddi oğul istərəm" bədii filmində istədiyinə nail olmuş, işini uğurla başa çatdırıb, tamaşaçıya sevdirə bilmişdir. Bu obrazlar bizə ona görə doğma və yaxındır ki, onlar bir məslək, bir amalla yaşayıb, ölümlə üz-üzə gələndə belə sarsılmayıb, mənəvi cəhətdən qalib çıxıblar.

Çünki onların öz ideyaları naminə apardıqları mübarizə bugünkü tarix nöqteyi-nəzərindən yalnış hesab edilsə də, bir şəxsiyyət kimi hər biri azərbaycanlı gənclərin ən gözəl nümunələri olaraq qalırlar. "Yeddi oğul istərəm" filminin əsas personajları olan bu gənclər öz xarakterləri ilə daha çox diqqəti cəlb edirlər.

Çox maraqlıdır ki, bu personajlar xaraktercə biri-birindən tamamilə fərqlənirlər. Məsələn, fikri daima öz sevdiyi qızın-Humayın yanında olan, dəstənin ən cavan üzvü-Cəlal nə qədər lirik, romantik, olduqca nigaran və səbrsizdirsə, dəstənin başında durub, tez bir zamanda sinfi düşmənə qalib gəlmək,onun kökünü kəsmək məqsədi daşıyan Bəxtiyar bir o qədər səbrli, ciddi və ağıllı qəhrəmandır.

Elə o biri obrazlar da xarakter müxtəlifliyi ilə biri-birindən fərqlənirlər. Yəqin ki, bu kəskin xarakter müxtəlifliyi ilə biri digərindən seçilən, lakin niyyət və amalları eyni olan bu oğullar biz tamaşaçıya sevdirən, onu daha maraqlı və baxımlı edən bu xüsusiyyətlər adını çəkdiyimiz filmin uğurunda mühüm rol oynayıb.

Səməd Vurğunun "Komsomol poeması"nın ekrana köçürülməsində istər ssenari müəllifi Yusif Səmədoğlunun, istərsə də quruluşçu rejissor Tofiq Tağızadənin istedad və peşəkarlıqları nəticəsində bu film Azərbaycan kinosunun salnaməsinə qızıl hərflərlə yazılıb. Qeyd etmək lazımdır ki, T.Tağızadə özü Azərbaycanda vaxtı ilə komsomol hərəkatının ən fəal üzvlərindən biri olub.

"Yeddi oğul istərəm" bədii filminin ərsəyə gəlməsində xüsusi əməyi olan digər yaradıcı şəxslər də bu işdə əllərindən gələni əsirgəməyiblər. Onlardan quruluşçu operator (sonradan rejissorluq fəaliyyəti ilə məşğul olub). Rasim İsmayılovun adını həvəslə çəkmək istəyirəm. Çünki operator filmdə quruluşçu rejissorun istər bədii, istərsə də ideya baxımından həmfikiri olmalıdır.

Bu xüsusda filmin quruluşçu rəssamı Nadir Zeynalovun da əməyini ayrıca qeyd etmək istəyirəm. Çünki əsasən çəkilməsi Qazax rayonu və ətraf kəndlərində nəzərdə tutulan mövzu öz dövrünə görə bu regionlarda baş verən tarixi hadisələrdən bəhs edir. Lakin bəzi məlum səbəblərdən filmin bütün çəkilişləri Bakı kəndlərində aparılıb. Bunun da nə qədər çətinliklər törətdiyini dərk etmək o qədər də çətin deyil.

Geyim rəssamı Mais Ağabəyov və filmin bəstəkarı Xəyyam Mirzəzadənin də müsbət işini qeyd etmək istərdim.

Filmdəki obrazların ərsəyə gəlməsində isə aktyor seçiminin ayrıca yeri var. Bu filmdəki rollara dəvət alan bütün aktyorlar yerindədir. Həm fiziki, həm də daxili gərginliklərlə hasilə gələn aktyor oyunları tamaşaçıda o illərin abı-havasını duymaq, qəhrəmanların yaşadığı gərgin, sıxıntılı, dramatik vəziyyətləri "özündə yaşatmaq" kimi nəticələrə gətirib çıxarır.

Yeddi oğulun yeddisi də üzərlərinə düşən tapşırığı bacarıqla yerinə yetirmişlər. Bu mənada Bəxtiyarın ağrı-acısını, xüsusilə komsomolçu dostlarının hamısı tələf olandan sonra tək qaldığı, uzun masa arxasında oturub, onların komsomol biletlərini nəzərdən keçirdiyi final səhnədə oturuşu, baxışı, keçirdiyi ağır hallara, sarsıntılara inanırsan. Gözlərindəki dərinlik və məna Həsən Məmmədovun oyununda aktyor sənətinin ən yüksək dərəcəsini və böyük peşəkarlığını ifadə edir. Bəy oğlu olsa da, amalı uğrunda mübarizəyə qoşulub, hətta çox sevdiyi qızın (Humay- Zemfıra İsmayılova) atası Gəray bəyə qarşı vuruşan Cəlalın (Ənvər Həsənovun simasında) təmizliyinə və sevgisinə inanmamaq olmur.

Mirpaşanın (Elçin Məmmədov) cəsarəti və kobudluğuna, Qəzənfərin (Şahmar Ələkbərov) mülayim və mehribanlığına, Uzun Qasımın (Əbdül Mahmudov) teatra, artistlik sənətinə olan həvəsindən irəli gələn maneralarına, hətta düşmən tərəfə güllə atarkən belə, "ququş"-deyib, çeviklik göstərməsinə, hansısa daxili xəstəliyi olub, gözlərinin nurunu itirən xəstə Şahsuvara (Rafıq Əzimov) və başqalarına inanır, onların oyununu heyranlıqla seyr edirsən...

Həsənağa Turabovun - Gəray bəy, Hamlet Xanızadənin - gizir, İsmayıl Osmanlının-Kələntəri tamaşaçılarda dərin rəğbət və aktyor sənətinə böyük maraq oyadır...

Filmdə irili-xırdalı digər obrazlar da tam dəqiqliyi ilə inandırıcı və diqqətəlayiqdir. Bunlardan - Qəqəni-Fərhad İsrafilov, kəndli - Eldəniz Zeynalov, əkinçi- Fazil Salayev, hökumət nümayəndəsi - Ramiz Məlikovun oyunlarını qeyd etmək olar.

**"Yeddi oğul istərəm"in ərsəyə gəlməsindən 40 ildən artıq bir müddət keçsə də, yaradıcı və ifaçılarının əksəriyyəti dünyalarını dəyişsə də, bu film yaşayır. Hər nümayişdə yeni-yeni çalarlarını tapdığımız bu Azərbaycan kinosu neçə-neçə dəyərli ekran əsərlərimizdən biri kimi tarixə çevrilsə də, öz dövrünün igidlərindən və bəylərindən, onların bir azərbaycanlı kimi şəxsiyyət və ləyaqətlərindən dönə-dönə söz açır, yaşamaqda olan indiki nəslin xaraktercə formalaşmasına töv-siyəçi olur.**

**Ramiz ƏZİZBƏYLİ,**
***xalq artisti, professor***